# İstedadlı rejissor, cəsur döyüşçü

**Bu yaxınlarda Sumqayıt Bələdiyyəsinin əməkdaşı, yaxın dostum Səbuhi Allahverdiyev öz statusunda Vətən müharibəsi şəhidi olan qardaşı Elnurun şəkillərini və haqqında məlumat paylaşmışdı. Zəfər Günündə torpağa tapşırılan qəhrəman oğlumuzu oxuculara təqdim etməyi özümə mənəvi borc bildim.**



2020-ci il sentyabrın 27-də Qarabağın işğaldan azad edilməsi uğrunda başlanan Vətən müharibəsi noyabrın 8-də möhtəşəm qalibiyyətlə başa çatdı. Bu yolda xüsusi fədakarlıq göstərmiş cəsur döyüşçü Elnur Allahverdizadə isə təəssüf ki, o günün sevincini yaşaya bilmədi. Çünki noyabrın 7-də Ağdam-Xocavənd istiqamətində gedən döyüşlər zamanı Yuxarı Qiyaməddinli kəndində düşmən mərmisinə tuş gələrək şəhid olmuşdu.

Əslən Zəngilan rayonundan olan Elnur Əli oğlu Allahverdizadə 1995-ci il mayın 15-də Sumqayıtda dünyaya göz açıb. 2012-ci ildə şəhərdəki 41 nömrəli tam orta məktəbi, 2016-cı ildə isə Bakı Slavyan Universitetinin (BSU) tərcümə fakültəsini çex-Azərbaycan dili ixtisası üzrə bitirib. Tələbəlik illərində nümunəvi davranışı, elmə, təhsilə xüsusi maraq göstərməsi, universitetin ictimai-mədəni həyatında fəal iştirakı ilə seçilib. Elnur ordu sıralarında müddətli həqiqi hərbi xidmətdən sonra səs rejissoru kimi fəaliyyət göstərib. İstedadlı gənc "İlk media", "Pismus production" ilə əməkdaşlıq edib. "Barama", "Atılmışlar" seriallarının, "Buğlama" komediya serialının "Son iclas" bədii-sənədli filminin, bir çox reklam çarxlarının səs rejissoru olub.

Vətən müharibəsi başlanandan 1 gün sonra o, könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt Şəhər Baş İdarəsindən müharibəyə yollanıb. Quru qoşunlarının tərkibində artilleriya qüvvələrimizin topçusu olaraq döyüşlərə qatılıb. Ağdam və Xocavəndin azadlığı uğrunda son nəfəsinədək vuruşub. Silahdaşları bildirirlər ki, Elnur topun arxasında olanda sərrast atıcı kimi hədəfdən heç zaman yayınmayıb. Daim cəsurluq nümunəsi göstərib. Bütün döyüş yoldaşlarına ürək-dirək verib, qələbəyə ruhlandırıb. İgid döyüşçü işğalçılar üzərində böyük qələbə qeyd olunan gün Sumqayıtdakı Şəhidlər xiyabanında ehtiramla dəfn edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Elnur Allahverdizadə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

Vətən yolunda canını qurban verən şəhidin yaşadığı binanın divarında xatirə lövhəsi açılıb. İndi bu ünvan vətənsevər gənclərin ziyarət yeridir.

***Sübhan QULİYEV,***
***"Sumqayıt" qəzetinin baş redaktoru***

Xalq qəzeti.- 2025.- 4 noyabr (№235).- S.11.